Belçikanın Federal, Flaman, Valon və Brüssel parlamentlərinin 20 üzvü COP29 çərçivəsində həm Azərbaycan hökumətinə, həm də tədbirdə iştirak edən Belçika hökuməti nümayəndə heyətinə boş tələblərdən ibarət bəyanatla müraciət ünvanlayıb. Bu müraciətdə Azərbaycanda guya hərbi əsir olan ermənilərin azad edilməsinə çağırış yer alıb. Belçikalı parlamentarilərin bu addımı bir çox Qərb dairəsinin həqiqətləri bilərəkdən görməzdən gəldiyini və ya erməni diasporunun təsiri altında hərəkət etdiyini bir daha sübut edir. Azərbaycan xalqı və dövləti bir daha xatırladır ki, 44 günlük Vətən müharibəsi zamanı əsir götürülən erməni hərbçilər humanizm prinsiplərinə uyğun olaraq azad edilib. Lakin hazırda Belçika parlament üzvlərinin müdafiə etdiyi şəxslər hərbi əsir deyil, müharibə dövrü törətdikləri cinayətlərə görə həbs edilmiş şəxslərdir. Bu şəxslər dövlət sərhədini qanunsuz keçmək, terrorçuluğu maliyyələşdirmək, şəhər və kəndlərin onların göstərişi ilə bombalanması insanlıq əleyhinə cinayətlər törətmək kimi ağır ittihamlarla məsuliyyətə cəlb olunublar.

Belçikanın COP29 çərçivəsində ölkəmizə qərəzli mövqeyi

Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur bölgələrində baş verənlərə obyektiv yanaşması bu qədər təəccüblü olmamalıdır. Yüz minlərlə azərbaycanlını öz evindən didərgin salan, mülki əhalini qəsdən qətlə yetirən, şəhər və kəndləri raket atəşinə tutan, insanlıq əleyhinə cinayətlər törədən şəxslərin hərbi əsir kimi təqdim olunması beynəlxalq hüquqa, xüsusilə də insan hüquqları prinsiplərinə tamamilə ziddir. Belçika parlament üzvlərinin məsələnin mahiyyətinə varmadan yalnız erməni diasporunun dezinformasiyalarına əsaslanaraq belə bir bəyanat verməsi, ilk növbədə, beynəlxalq hüququn aliliyinə hörmətsizlikdir. Bu mövqe, həmçinin Azərbaycanın milli suverenliyinə və ədalət prinsipinə qarşı açıq qərəzli yanaşmanın bariz nümunəsidir. Azərbaycanın illərlə təcavüzə və işğala məruz qalmış torpaqlarında sülh və sabitliyi bərpa etməyə çalışdığı bir vaxtda Belçika parlament üzvlərinin belə birtərəfli mövqedə dayanması yalnız regional gərginliyin artmasına xidmət edə bilər. Bu, həm də Qərbin ikili standartlarının növbəti nümayişidir: hüququ pozan, insanlıq əleyhinə cinayətlər törədən şəxsləri müdafiə etmək, bu cinayətlərin qurbanlarını isə görməzdən gəlmək. Azərbaycan xalqı heç vaxt öz haqlı mübarizəsindən geri çəkilməyəcək. Beynəlxalq arenada bütün bu cür qərəzli çıxışlara rəğmən, ölkəmiz öz milli maraqlarını və suverenliyini qorumaq üçün prinsipial mövqedə dayanmağa davam edəcək. COP29 kimi qlobal tədbirlərdə diqqət mərkəzində olmağımız da Azərbaycanın beynəlxalq səviyyədə artan nüfuzunun sübutudur. Bu, həm də Qərbin bəzi dairələrinin ölkəmizə qarşı apardığı dezinformasiya kampaniyasına ən yaxşı cavabdır.

Bir məqamı da qeyd edək ki, parlamentarilər müraciətində Azərbaycanın multikulturalizm dəyərlərinə, tolerantlıq ənənələrinə və mədəni irsin qorunması istiqamətində apardığı fəaliyyət kölgə salmağa da cəhd ediblər. Ölkəmiz tarixi və mədəni müxtəlifliyi ilə tanınan, müxtəlif millətlərin və dinlərin qovuşduğu bir məkan olaraq öz ərazisindəki bütün tarixi abidələrə eyni qayğı və diqqətlə yanaşır. Bu, təkcə söz yox, konkret faktlarla sübut olunan bir həqiqətdir. Ölkəmizdə həm xristian, həm müsəlman, həm də digər dinlərə aid tarixi və mədəni irs nümunələrinin qorunması və bərpası istiqamətində genişmiqyaslı işlər görülür. Azərbaycanın bu sahədəki fəaliyyəti, hətta Roma papası tərəfindən dəfələrlə yüksək qiymətləndirilib. Halbuki Ermənistanda azərbaycanlıların tarixi-mədəni irsi amansızlıqla məhv edilib. 1987-1991-ci illərdə azərbaycanlıların Ermənistandan kütləvi deportasiyasından sonra orada mövcud olan məscidlər, qəbiristanlıqlar və digər mədəniyyət abidələri vandalizm aktlarının qurbanı olub. Faktlar göstərir ki, Ermənistan dövlət səviyyəsində azərbaycanlılara aid irsi sistemli şəkildə məhv edib. Bu qərəzli yanaşmanın nəticəsi olaraq, Qarabağ və Şərqi Zəngəzur bölgələrində Azərbaycanın mədəni irsinin 30 il müddətində viran qoyulması ölkəmizə milyardlarla dollar həcmində ziyan vurub. Ermənistan bu ziyana görə məsuliyyət daşımalı və təzminat ödəməlidir. Belçika parlamentarilərinin Qarabağda Azərbaycan mədəni irsinin dağıdılmasına tamamilə biganə qalaraq yalnız erməni abidələri ilə bağlı narahatlıq ifadə etməsi isə onların siyasi ikiüzlülüyünü bir daha üzə çıxarır. Bu yanaşma regionda balanslı və ədalətli bir sülh qurulması səylərinə ciddi zərbə vurur.

Belçikalı parlamentarilərin bəyanatında Azərbaycana qarşı "hərbi təcavüz" ittihamına gəlincə, bu iddia tamamilə əsassız, absurd və həqiqətə ziddir. Azərbaycan beynəlxalq səviyyədə tanınmış ərazilərində Ermənistanın 30 illik işğalına son qoyaraq, BMT-nin 4 qətnaməsi əsasında ərazi bütövlüyünü və suverenliyini bərpa edib. Beləliklə, rəsmi Bakı öz hüquqlarını qorumaqla yanaşı, Cənubi Qafqazda sülh təşəbbüslərinin əsas iştirakçısı və təşəbbüskarıdır. Sülh müqaviləsinin mətnini hazırlayan, Ermənistanla danışıqları irəli aparmağa çalışan tərəf məhz Azərbaycandır. Belçika parlamentinin bəzi üzvləri isə bu reallıqları bilərəkdən təhrif edərək erməni diasporunun maliyyəsi və təsiri altındakı "muzdlu siyasi əsgərlər" kimi çıxış edirlər. Onların iddiaları yalnız Ermənistanı yeni gərginliklərə təhrik etməyə xidmət edir və regionda sabitliyin pozulması cəhdindən başqa bir şey deyil. Azərbaycanın həm mədəni irsi qorumaq, həm də regionda davamlı sülh qurmaq istiqamətində göstərdiyi səylər belə qərəzli və birtərəfli yanaşmalarla kölgələnə bilməz. Əksinə, bu səylər tarixi ədalətin bərpası və beynəlxalq hüququn üstünlüyü prinsipinə əsaslanan siyasətin təcəssümüdür. Belçika parlamentariləri əgər həqiqətən ədaləti müdafiə etmək istəyirlərsə, Qarabağda xalqımızın mədəni irsinə qarşı törədilən vandalizm aktlarını və Ermənistanın beynəlxalq hüquqa qarşı kobud pozuntularını da gündəmə gətirməlidirlər. Əks halda, onların bəyanatları siyasi manipulyasiya və ikili standart nümunəsidir.

Ümumiyyətlə, Azərbaycanın COP29-a uğurla ev sahibliyi etməsi, qlobal iqlim gündəliyində yeni maliyyə mexanizmləri və strateji hədəflərin müəyyənləşdirilməsi prosesində önəmli rol oynaması bir çox Qərb dairələrində narahatlıq doğurub. Lakin bu cəhdlər həm nəticəsiz, həm də məntiqsizdir. COP29 BMT çərçivəsində təşkil olunan və dünya ölkələrinin gələcək nəsillər üçün davamlı gələcək qurmaq məqsədilə əməkdaşlıq etdiyi mühüm qlobal tədbirdir. Belə bir platformanı siyasiləşdirmək, Qərbin bəzi dairələrinin öz məsuliyyətlərindən yayınmaq üçün ucuz taktikasından başqa bir şey deyil. Bu dairələr nəinki qlobal iqlim öhdəliklərindən qaçırlar, həm də beynəlxalq ictimaiyyətin gözündə özlərini məsuliyyətsiz tərəfdaş kimi göstərirlər.

Belçika parlamentinin 2021 və 2024-cü illərdə qəbul etdiyi Qarabağla bağlı qərəzli qətnamələr əsasında ölkənin COP29-da iştirak etməməyi "tövsiyə etməsi" bu siyasətin nə qədər kökündən yanlış olduğunu bir daha sübut edir. İqlim dəyişmələri ilə heç bir əlaqəsi olmayan siyasi məsələlərin belə bir mühüm konfransa daşımağa çalışılması Qərbin bəzi dövlətlərinin ikili standartlarının bariz nümunəsidir. Belçika parlamenti anlamalıdır ki, COP29-da qəbul edilən qərarlar yalnız Azərbaycanın və ya başqa bir dövlətin deyil, bütün dünya, o cümlədən Belçika xalqının gələcəyinə aiddir. Azərbaycanın konfrans çərçivəsində irəli sürdüyü təşəbbüslər, o cümlədən iqlim maliyyəsinin artırılması, karbon emissiyalarının azaldılması və ekoloji tarazlığın bərpasına dair konkret öhdəliklər qlobal miqyasda davamlı inkişaf məqsədlərinə nail olmaq üçün əsaslı addımlardır. Azərbaycanın COP29 çərçivəsində qlobal əməkdaşlığa verdiyi töhfə dünya üçün strateji əhəmiyyət daşıyır. Ölkəmiz bu konfransda yalnız öz milli maraqlarını deyil, həm də bütün dünya üçün vacib olan gələcək ekoloji sabitlik məqsədini irəli sürüb. Belçika parlamenti və onun kimi düşünən dairələr unutmamalıdır ki, iqlim dəyişmələrinə qarşı mübarizə heç bir siyasi manipulyasiya ilə zərər görməməli, bütün ölkələrin birgə səyləri ilə həll olunmalıdır. Azərbaycanın bu sahədəki uğurlarına kölgə salmaq istəyənlər isə yalnız özlərini beynəlxalq ictimaiyyət qarşısında rəzil duruma salırlar.

Nurlan ABDALOV,
"Respublika".

Respublika .- 2024.- 29 noyabr (№ 263).- S.7.